**Samir Xosrov oğlu ƏLƏSGƏROV**
AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı,
E-mail: samir_alesgerov@mail.ru

# AZƏRBAYCANDA EMAL SƏNAYESİNDƏ VERGİ YÜKÜNÜN KƏMİYYƏTCƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* Azərbaycanda emal sənayesində vergi yükünün kəmiyyətcə qiymətləndirilməsinin aktual problemlərinin həlli yollarının müəyyənləşdirilməsidir. Ölkədə emal sənayesinin imkanları araşdırılmış və vergi yükü təhlil olunmuşdur. Müasir dövrün təcrübəsindən yanaşmaqla, vergi yükünün kəmiyyətcə qiymətləndirilməsi problemləri baxılmışdır. emal sənayesi subyektlərinə vergi yükünün optimallaşdırılması və vergi dərəcələrinin stimullaşdırılması olmasının vacibliyi bildirilmişdir. Əsasən qeyri-neft qaz sahələrindən ibarət olan emal sənayesinin səmərəli vergi mexanizmlərinin hazırlanması və tətbiqi üzrə tövsiyələr verilmiş və təkliflər irəli sürülmşüdür.

*Tədqiqatın metodu* olaraq məqalənin hazırlanmasında bir qrup elmi metodlardan – analiz, sintez, statistika və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Digər tərəfdən, emal sənayesi müəssisələrində vergi yükünün optimallaşdırılması təklifləri olan tədqiqatçıların elmi əsərlərinə istinad edilmişdir.

*Tədqiqatın nəticələri* müasir dövrdə daha səmərəli vergi mexanizmlərinin hazırlanmaında əldə olunan elmi nəticələrdən səmərəli şəkildə istifadə edilməsi ilə izah olunur.

**Açar sözlər**: Azərbaycan, emal sənayesi, vergi yükü, kəmiyyətcə qiymətləndirilmə, qiymətləndirmənin aktual problemləri, vergi yükünün optimallığı.

**UOT:** 336.02: 336.027
**JEL:** L60; H21; H71
**DOI:** 10.54414/HMKB9641

## Giriş

Emal sənaye müəssisələrinin yarandığı gündən etibarən əsas məqsədi maddi nemətlərin istehsalı ilə bağlı fəaliyyətdən mümkün olan maksimum mənfəət əldə etməkdir. Eyni zamanda, iqtisadi nəticənin maksimallaşdırılması həm gəlirlərin artırılması, həm də büdcəyə məcburi ödənişlərin daxil olduğu xərclərin azaldılması hesabına əldə edilə bilər. Emal sənaye müəssisələrinin istehsal-təsərrüfat fəaliyyətinin təhlilində əsas yerlərdən birini vergi öhdəliklərinin qiymətləndirilməsi tutur ki, bu da müəssisənin vergi yükünü müəyyənləşdirməyə imkan verir. “Vergi yükü” anlayışı istənilən fəaliyyət növü üzrə, o cümlədən emal müəssisələrinin maliyyə vəziyyətini qiymətləndirmək məqsədilə istifadə olunan iqtisadi göstəricilərin tərkib hissələrindən biridir. Bu günə qədər bütün vergi ödənişlərinin cəminin qiymətləndirilməsi və onun emal müəssisələrinin iqtisadi vəziyyətinə təsiri maliyyə sahəsində həm dünya, həm də Azərbaycan reallıqlarında ən mürəkkəb və mübahisəli məsələlərdən biridir. Vergi yükü hissi insanın öz gəlirləninin müəyyən hissəsini müntəzəm olaraq dövlətə ödəmək borcunu psixoloji cəhətdən hiss etməsini ifadə edir. Bəzi insanlar vergi yükünü onların rifahının pisləşməsinə səbəb olacağı və onlara ziyan verəcəyi hal kimi dəyərləndirirlər [1, s.232].

## Emal sənayesində vergi yükünün kəmiyyətcə qiymətləndirilməsi məsələlərinin tədqiqi

Qeyd edək ki, vergi yükünün hesablanmasının mövcud üsullarının problemlərini müəyyən etməzdən əvvəl “vergi yükü” termininin iqtisadi kateqoriya kimi başa düşülməsini aydınlaşdırmaq lazımdır. Bu günə qədər alimlər effektiv və rəqabətqabiliyyətli vergi sistemi yaratmaq üçün bu problemi fəal şəkildə öyrənirlər. “Vergi yükü” anlayışının mahiyyəti ilə bağlı müxtəlif nöqteyi-nəzərlərin təhlili göstərir, o, kəmiyyət

xarakteristikasından daha çox keyfiyyət xarakteri daşıyır, çünki o, vergilərin bütövlükdə iqtisadiyyatın səviyyəsinə, əhali qruplarına təsirini göstərir. O, müəssisələr tərəfindən vergi siyasəti sahəsində strateji qərarlar qəbul edilərkən, müvafiq dövlət orqanları tərəfindən isə vergi sisteminin təkmilləşdirilməsi zamanı istifadə olunur. Buna görə də emal müəssisələrinin inkişafının aktual məsələlərindən biri vergi yükünün optimallaşdırılmasıdır [2, s.328]. Vergi yükü - cəmiyyətin sosial-iqtisadi həyatında mühüm rol oynayan, vergi daxilolmalarının ÜDM-in həcminə olan nisbətini əks etdirən ümumiləşdirici göstəricilərdən biri başa düşülür [3, s.101]. İxtisaslaşdırılmış ədəbiyyatda adətən vergi yükünün bir neçə növü nəzərdən keçirilir:

- mütləq vergi yükü - vergi öhdəliklərinin məcmusunu əks etdirən, lakin vergi yükünün ağırlığını nəzərə almayan dəqiq rəqəmdir. O, büdcəyə vergi ödənişlərinin, büdcədənkənar fondlara ödənişlərin, habelə vaxtı keçmiş borcların məbləği kimi hesablanır;
- nisbi vergi yükü - konkret vergi ödəyicisinin gəlirinin hansı hissəsinin vergilərin ödənilməsinə düşdüyünü göstərən dəyərdir. Müəssisələrə münasibətdə vergi yükünün səviyyəsini ifadə edir və təşkilatın vergi ödənişləri ilə tutulan gəlirlərinə nisbətdə payı müəyyən edir;
- sənayenin orta vergi yükü – müxtəlif fəaliyyət növləri üçün yük əmsalını, hər bir sənaye üzrə orta dəyəri təşkil edir.

Müasir vergi tənzimlənməsi nəzəriyyəsində ən mübahisəli məsələ vergi yükünün kəmiyyətcə qiymətləndirilməsi problemidir, xüsusən də ən kəskin məsələ bu göstəricinin düzgün hesablanmasıdır. İqtisadiyyat elminin vergi yükü anlayışına marağı bu göstəricinin təkcə mikro səviyyədə müəssisənin maliyyə vəziyyətinə deyil, həm də makro səviyyədə - fiskal ödənişlərin həcmi vasitəsilə təsiri ilə bağlıdır. Bu gün bir çox alimlərin vergi yükünün müəyyənləşdirilməsinə müxtəlif yanaşmaları var, bu baxımdan vergitutmanın emal müəssisələrinə təsirini xarakterizə edən terminologiyanın ümumi anlayışı və qəbulu mövcud deyil [4, s.769].

Kəmiyyət baxımından vergi yükü müəyyən dövr üçün vergidən çıxmaların ümumi məbləğinin vergitutma subyektinin həmin dövr üçün gəlirinin məbləğinə nisbəti ilə ölçülə bilər. Ema müəssisələrinin vergi yükünün hesablanmasına dair bəzi metodoloji yanaşmaları nəzərdən keçirək:

**I Metod** - Emal müəssisələri tərəfindən ödənilən bütün vergilərin ümumi gəlir məbləğinə (satış və qeyri-satış) nisbətinin hesablanması.

$$VY = \frac{ÜV}{SG + QG} X\ 100\%$$

Burada $VY$ – müəssisənin vergi yükü; $ÜV$ - bütün səviyyələrin icmal büdcələrinə ödənilmiş vergilərin ümumi məbləği; $SG$ - məhsulların satışından əldə edilən gəlirlər; $QG$ - qeyri-əməliyyat gəliri.

**II Metod** - İkinci metod emal müəssisələrinin vergi yükünün mütləq və nisbi olaraq bölünməsini nəzərdə tutur. Mütləq vergi yükü dedikdə, vergi təqvim ili üçün büdcədənkənar fondlara ödəmələrin və vergi tutulmalarının məbləği başa düşülür və aşağıdakı düsturla hesablanır:

$$MVY = ÜV + BFV + VB$$

Burada $MVY$ - mütləq vergi yükü; $ÜV$ – müəssisə tərəfindən ödənilən vergi ödənişləri; $BFV$ - büdcədənkənar fondlara edilən vergi ödənişləri; $VB$ - vergi borcları.

Nisbi vergi yükünün hesablanması mütləq vergi yükünün yeni yaradılmış dəyərə nisbətini əks etdirən düstura əsaslanır:

$$NVY = \frac{MVY}{YD} X\ 100\%$$

Burada $YD$ – yeni yaradılmış dəyərdir.

**III Metod** - Bu metoda əsasən vergi yükü göstəricisi ödənilmiş bütün vergilərin onların ödənilməsi məqsədilə tələb olunan vəsait mənbəyinin ümumi məbləğinə nisbəti kimi müəyyənləşdirilə bilər:

$$VY = \frac{\sum(ÜV + BFV)}{\sum ÜM} X\ 100\%$$

Burada $\sum(ÜV + BFV)$ - hesablanmış vergi ödənişlərinin və büdcədənkənar fondlara ödənişlərin məbləği; $\sum ÜM$ - vergilərin ödənilməsi üçün vəsait mənbəyinin ümumi məbləği. Burada əhəmiyyətli bir fakt ondan ibarətdir ki, bütün vergilər üçün ümumi göstərici əlavə dəyərdir və onu aşağıdakı kimi hesablamaq olar:

$$ƏD = ÜV + BFV + A + ƏH + M$$

Burada $ƏD$ - əlavə dəyərdir. Beləliklə, üçüncü üsul amortizasiyanın əsas vəsaitlərin əlavə dəyərindən çıxarılmasını nəzərdə tutmur və birbaşa müəssisənin gəlirlərində vergilərin payını xüsusi olaraq müəyyən etməyə imkan verir. Həmçinin, metodika mənfəət və əmək haqqının payını, amortizasiya məbləğini, vergi ayırmalarının nisbətini və yaradılmış məhsulların hər bir manatına xalis mənfəəti aydınlaşdırmağa imkan verir.

**IV Metod -** Emal müəssisələrinin ümumi vergi yükü əlavə dəyərin hesablanması düsturu ilə aparıla bilər:

$$ƏD = ƏDV + A + ƏH + M$$

Burada $ƏD$ - əlavə dəyər; $ƏDV$ - əlavə dəyər vergisi, $A$ - amortizasiya; $ƏH$ - əmək haqqı ödənişləri; $M$ – mənfəətdir. Bu metodika bir sıra fundamental struktur əmsallarının tətbiqinin mümkünlüyünü nəzərdə tutur, məsələn: əlavə dəyərdə əmək məsrəflərinin payının hesablanması; amortizasiya ayırmalarının əlavə dəyərdə payı; əlavə dəyərin ümumi ümumi gəlirdə payı [5, s.11].

Vergi sisteminin fəaliyyətinin ən mühüm aspektlərindən biri vergi yükünün və onun emal müəssisələrinin fəaliyyətinə təsirinin qiymətləndirilməsidir. Bu onunla əlaqədardır ki, dövlətin bazar iqtisadiyyatına təsir göstərdiyi bir çox iqtisadi rıçaqlar arasında vergilər mühüm yer tutur. Vergi sistemi ən mühüm iqtisadi tənzimləyicilərdən biri kimi iqtisadiyyatın dövlət tənzimlənməsinin maliyyə-kredit mexanizminin əsasını təşkil edir.

**Müasir şəraitdə ölkəmizin emal sənayesində vergi yükünün kəmiyyətcə qiymətləndirilməsinin aktual məsələləri**

Məlumdur ki, ümumi vergi yükü ödənilmiş vergi ödənişlərinin ümumi payını müəyyənləşdirmək üçün istifadə edilə bilər. Yəni, təsərrüfat subyektinin vergi yükü orta sənaye göstəricisindən xeyli yüksəkdirsə, o zaman vergilərin artıqlaması ehtimalı var. Bu halda emal müəssisələrdə vergi planlaşdırma fəaliyyətinin həyata keçirilməsinin mümkünlüyünü öyrənmək məqsədəuyğun olardı. Əksinə, emal müəssisələrində vergi yükünün dəyəri müəyyən bir sahə üzrə orta səviyyədən əhəmiyyətli dərəcədə aşağı olarsa, vergilərin minimuma endirilməsi sxemlərinin istifadəsini güman edə bilərik ki, bu da büdcəyə vəsaitin az ödənilməsinə səbəb olur. Bu zaman vergi risklərinin təhlilinə diqqət yetirmək lazımdır. Burada belə qayda tətbiq olunur: “vergi yükü nə qədər azdırsa, vergi riski də bir o qədər yüksəkdir”. Ümumiyyətlə, müəssisənin vergi yükünün dövri hesablanması faydalı bir hərəkətdir, çünki göstəricinin köməyi ilə mövcud vergi siyasətinin effektivliyini təhlil etmək, maliyyə təhlükəsizliyini artırmaq və vergi ödəyicilərinin işinin təhlili mexanizmini əldə etmək mümkündür.

Vergi planlaşdırması prosesi bir-biri ilə əlaqəli bir neçə mərhələdən ibarətdir ki, bunlar vergi öhdəliklərinin azaldılmasına mütləq zəmanət verən hərəkətlərin aydın və birmənalı ardıcıllığı kimi qəbul edilməməlidir. Vergi planlaşdırmasının köməyi ilə həm bütövlükdə müəssisələrin vergitutmasını optimallaşdırmaq, həm də azaltmaq mümkündür [6, s.19]. Emal müəssisələrində vergilərin optimallaşdırılması aşağıdakı prinsiplərə əsaslanır:

– vergi səmərəliliyinin artırılması sistemindən istifadə edərkən emal müəssisələrinin istifadə etməli olduğu əsas prinsiplərdən biri olan qanuna uyğunluq prinsipi. Bu prinsip onu nəzərdə tutur ki, emal müəssisələrində onun optimallaşdırılması yolları mütləq qanuni olmalıdır;

– xərclərin rasionallığı prinsipi o deməkdir ki, vergi ödənişlərinə qənaətin faydaları vergi sisteminin optimallaşdırılmasını təmin etmək üçün müəssisənin xərclərindən artıq olmalıdır;

– diversifikasiya prinsipi ondan ibarətdir ki, istifadə olunan optimallaşdırma üsullarından birinə xarici amillərin mənfi təsiri olduqda, müəssisə verginin optimallaşdırılması sistemindəki sürətli dəyişikliyə uyğunlaşdırılmalıdır;

– məxfilik prinsipi o deməkdir ki, müəssisə rəhbərliyi informasiyaya çıxışın məhdudlaşdırılmasını təmin etməyə çalışmalıdır;

– muxtariyyət prinsipi o deməkdir ki, vergilərin optimallaşdırılmasına təsirlər xarici iştirakçılardan minimal asılılığa malik olmalıdır.

Emal müəssisələrində vergi yükünün optimallaşdırılması vergi planlaşdırması çərçivəsində həyata keçirilir ki, bu da öz növbəsində müəssisənin vergi fəaliyyətinin tərkib hissəsidir. Vergi planlaşdırılması yolu ilə vergi

yükünün optimallaşdırılması vergi ödəyicisinin məqsədyönlü qanuni hərəkətləri, o cümlədən qanunvericiliklə nəzərdə tutulmuş bütün güzəştlərdən, vergidən azadolmalardan və digər hüquqi metod və üsullardan tam istifadə etməklə vergi öhdəliklərinin məbləğinin azaldılmasıdır. Vergi planlaşdırmasının köməyi ilə həm bütövlükdə emal müəssisələrinin vergi yükünü optimallaşdırmaq (yəni vergilərin ödənilməsi üçün ən əlverişli proseduru müəyyənləşdirmək və bununla bağlı bütün riskləri azaltmaq), həm də mümkün olduqda, müəyyən bir halda və həddə vergilərin məbləğini azaltmaq olar [7, s.109].

Müəssisələr üçün ən məhsuldar olanı, fəaliyyət dairəsindən asılı olaraq vergi optimallaşdırılmasının ümumi modelinin hazırlanması və bu modelə uyğun olaraq onların vergitutmasının minimuma endirilməsinə yönəlmiş konkret tədbirlərin görülməsidir. Müəssisənin vergi yükünü optimallaşdırmaq üçün bir çox qanuni və hüquqi üsullar mövcuddur ki, bunlar adətən ekspert iqtisadçılar tərəfindən təklif olunur:

– xüsusi vergitutma rejimlərindən istifadə;
– vergi güzəştlərinin tətbiqi;
– vergitutma subyektinin idarəetmə formasının dəyişdirilməsi;
– vergi tutulan mənfəətin azaldılması məqsədilə əsas vəsaitlərin sürətləndirilmiş amortizasiyasının və ya yenidən qiymətləndirilməsinin tətbiqi və s.[8, s.34].

Vergilərin optimallaşdırılması üsullarının seçilməsi, onun mexanizminin əsaslandırılması və hüquqi təminatı dövlətin vergi siyasətinin nə dərəcədə səmərəli olmasından asılıdır. Bundan əlavə, vergi inzibatçılığı, korporativ vergi planlaması və vergi risklərinin idarə edilməsi müəssisələrin vergi optimallaşdırma mexanizminin hazırlanması üçün əsas alətlər hesab olunur.

Verginin optimallaşdırılmasının ən məqbul üsullarından biri, əsas vəsaitlərin yenidən qiymətləndirilməsi metodundan istifadə edərək vergitutma bazasını minimuma endirməyə imkan verən müəssisənin uçot siyasətinin seçilməsidir. Emal müəssisələri üçün çox tez-tez istifadə olunan vergi optimallaşdırılması metodu təxirə salınmış vergi ödəmə üsuludur, çünki yaranan vergi öhdəliyini növbəti təqvim dövrünə köçürmək üçün istifadə edilə bilər ki, bu da həmin müəssisələrin cari aktivlərinin idarə edilməsini yaxşılaşdırır. Gəlir vergisi üçün vergitutma bazasının azaldılması yollarından biri müəssisənin amortizasiya siyasətidir. Məhsulların (işlərin, xidmətlərin) maya dəyərinin tərkib hissəsi olan amortizasiya ayırmaları adi fəaliyyətin maya dəyərinə daxil edilir və bununla da müəssisənin mənfəəti azalır. Belə yanaşmalar fəaliyyət zamanı iqtisadi səmərəliliyinin artmasına imkan verir [9]. Vergi optimallaşdırmasının bu və ya digər üsulunu formalaşdırarkən həm optimallaşdırmanın, həm də bütövlükdə müəssisənin fəaliyyətinin bütün əhəmiyyətli aspektləri təhlil edilməlidir. Vergi planlaşdırma metodunu seçərkən qanuni tələblər nəzərə alınır. Müəssisədə vergi planlaşdırması hətta vergi dövründən əvvəl aparılmalıdır. Hər hansı bir müqavilənin bağlanmasına hazırlıq və qarşı tərəflərin axtarışı mərhələsində başlamalıdır, çünki artıq bu halda büdcəyə gələcək vergi ödənişlərini planlaşdırmaq və mümkün olduqda onları minimuma endirmək üçün tədbirlər görmək mümkündür.

Emal müəssisələrində vergi siyasətini optimallaşdırmaq üçün vergi ödənişlərinin komponentlər üzrə vergi təhlilini aparmaq lazımdır. Bu komponentlər vergi ödənişlərinin strukturunun və dinamikasının təhlili; müəssisənin vergi yükünün təhlili; şirkətin vergi borcunun təhlili. Vergi təhlilinin hər bir mərhələsində həll olunan vəzifələrin mahiyyəti bütövlükdə təsərrüfat subyektlərinin maliyyə idarəçiliyinin, xüsusən də vergi idarəçiliyinin strategiya və taktikasından asılı olaraq müəyyənləşdirilir. Bu, vergi idarəçiliyinin səmərəli fəaliyyətini təmin edən təhlilin qiymətləndirmə, diaqnostika və axtarış funksiyalarının həyata keçirilməsində analitik tədqiqatın metodologiyasının spesifikliyini müəyyən edir [10].

**Nəticə**

Beləliklə, mənfəəti artırmaq istəyən hər bir müəssisə effektiv vergi planlaşdırması aparmalı, vergilərin optimallaşdırılması üsullarını hazırlamalı və tətbiq etməlidir. Müəssisə rəhbərlərinin vergi qanunvericiliyinin tənzimləyici bazası sahəsində biliyi yoxdursa, bu, həmin müəssisənin sərt rəqabət mühitində bazarda lider mövqe tuta bilməyəcəyinə səbəb ola bilər. Buradan belə nəticələr çıxarmaq olar:

– Vergi yükü vergi ödənişlərinin emal müəssisələrinin maliyyə vəziyyətinə təsirini təhlil etmək üçün istifadə olunan əsas dəyərdir və ölkə miqyasında vergi sisteminin iqtisadi artıma təsirini göstərir, buna görə emal müəssisələrində vergi planlaşdırmasının təşkili çərçivəsində vergi ödənişlərinin optimallaşdırılmasına maraq göstərmək çox vacibdir;

–Vergi yükü anlayışının özü kifayət qədər geniş və çoxşaxəlidir, ümumiyyətlə, emal müəssisələrin ən real mövqeyini və vəziyyətini göstərəcək ən dəqiq nəticəni əldə etmək məqsədilə vergi yükünü bir neçə üsulla hesablamaq və bütövlükdə orta dəyəri götürmək lazımdır;

–Son olaraq bildirək ki, emal müəssisələrində vergi yükünün optimallaşdırılması və onların maliyyə vəziyyətinə təsirinin qiymətləndirilməsi problemi istənilən vaxt aktual olacaqdır, bu onunla bağlıdır ki, həmin məsələ inkişaf səviyyəsindən asılı olmayaraq istənilən dövlətin vergi sisteminin qurulmasına və təkmilləşdirilməsinə birbaşa təsir göstərir və emal müəssisələrinin vergi yükünün azaldılması son nəticədə modernləşmə üçün vəsaitin ayrılmasına və ölkənin iqtisadi inkişafı üçün şəraitin yaradılmasına gətirib çıxaracaq və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Mustafayev, A.M., Vəliyev, M.V., Bayramov, İ.M. Təsərrüfat təfəkkürünün psixologiyası: vergi aspektləri. “Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu” mövzusunda Respublika elmi-praktik konfransın materialları. Şamaxı, 15 iyun 2015, s.231-233.
2. Турбина, Н.М. Налоговая нагрузка предприятий: необходимость расчета и оптимизации/ Н.М. Турбина, А.Ю. Федорова, Е.А. Баева// Социально-экономические явления и процессы. – 2017. – Т. 12. – № 6. – С. 327-331.
3. Rzayev, P.Q. Vergi yükünün optimallaşdırılmasının nəzəri əsaslarına bir baxış. Azərbaycanın vergi jurnalı, 5/2012, s.99-116.
4. Мартынова, А.И. Анализ налоговой нагрузки субъектов малого и среднего предпринимательства мясоперерабатывающей промышленности Уральского региона// Вестник Удмуртского университета. Серия Экономика и право. – 2021. – Т. 31. – № 5. – С. 769-776.
5. Скороходова, Л.А. Современные подходы к расчету налоговой нагрузки предприятий / Л.А. Скороходова, Н.С. Михайлова // Теория и практика мировой науки. – 2017. – № 12. – С. 8-12.
6. Гапеева-Сергейчик, О.О. Налоговое планирование как один из инструментов снижения налоговой нагрузки на организацию/ О.О. Гапеева-Сергейчик, Е.Д. Будник// Экономика. Бизнес. Финансы. – 2022. – № 5. – С. 18-22.
7. Тищенко, И. А. Понятие, методы определения и оптимизации налоговой нагрузки на предприятие/ И.А. Тищенко, К.В. Таланова // Труды Ростовского государственного университета путей сообщения. – 2016. – № 5. – С. 108-110.
8. Евсин, М.Ю. Понятие налоговой нагрузки и оценка ее уровня как фактор успешной деятельности предприятия/ М.Ю.Евсин, Л.В.Труфанова// Ученые записки Тамбовского отделения РоСМУ. – 2020. – № 17. – С. 28-35.
9. Əliyev, Ş.T. Xüsusi iqtisadi zonalarda vergilərin mühüm aspektləri// Azərbaycanın vergi jurnalı, №2, Bakı, 2014, s. 149-160.
10. Алиев, Ш.Т., Гаибова А.М. Современные проблемы повышения прозрачности налоговой системы Азербайджана// The priorities of the world science: experiments and scientific debate: Proceedings of the XVIII International scientific conference 25-26 July 2018. – North Charleston, SC, USA: CreateSpace, 2018. – 117 p. - P. 60-67.

**Самир Хосров оглу Алескеров**
докторант Института Экономики НАНА,
E-mail: samir_alesgerov@mail.ru

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ КАЧЕСТВЕННОЙ ОЦЕНКИ НАЛОГОВОЙ НАГРУЗКИ НА ПЕРЕРАБАТЫВАЮЩУЮ ПРОМЫШЛЕННОСТЬ АЗЕРБАЙДЖАНА

**Резюме**

Целью исследования является определение и раскрытие сущности актуальных проблем качественной оценки налоговой нагрузки на перерабатывающую промышленность Азербайджана. Анализирован уровень налоговой нагрузки и потенциал развития перерабатывающей промышленности Азербайджана. Отмечена важность оптимизации налоговой нагрузки и стимулирование налоговой ставки в перерабатывающей сфере. Подготовлен ряд рекомендаций и предложений по совершенствованию налоговой системы и налоговой нагрузки, способствующие интенсификации развития перерабатывающей промышленности в стране.

Методы исследования – состоят из ряда научных методов, в том числе, методов синтеза, анализа и обобщения. Кроме того, рассмотрены научные подходы и методология ряда ученых, изучающих эффективность налоговой нагрузки в перерабатывающей сфере.

Результаты исследования - объясняются возможностью эффективного использования материалов исследования в подготовке целевых программ и мероприятий по интенсификации развития перерабатывающей промышленности Азербайджана.

**Ключевые слова:** Азербайджан, перерабатывающая промышленность, налоговая нагрузка, качественная оценка, актуальные проблемы оценки, оптимизации налоговой нагрузки.

**Samir Khosrov ALESKEROV,**
doctoral student of the Institute of Economics of the National Academy of Sciences
E-mail: samir_alesgerov@mail.ru

## CURRENT PROBLEMS OF QUALITATIVE ASSESSMENT OF THE TAX BURDEN ON THE PROCESSING INDUSTRY OF AZERBAIJAN

**Summary**

The purpose of the research is to determine and disclose the essence of urgent problems of a qualitative assessment of the tax burden on the processing industry of Azerbaijan. The tax burden and development potential of Azerbaijan's processing industry are analyzed for this purpose. The importance of optimizing the tax burden and stimulating the tax rate in the processing sector is noted. A number of recommendations and proposals to improve the tax system and tax burden, contributing to the intensification of the development of the processing industry in the country are given.

Research methods - consist of a number of scientific methods, including methods of synthesis, analysis and generalization. In addition, scientific approaches and methodology of a number of scientists studying the effectiveness of the tax burden in the processing field are considered.

The results of the research are explained by the possibility of effective use of the research materials in the preparation of targeted programs and measures to intensify the development of Azerbaijan's processing industry.

**Keywords**: Azerbaijan, processing industry, tax burden, qualitative assessment, actual problems of assessment, optimization of tax burden.

**Daxil olub:** 02.02.2023